# Şifahi xalq ədəbiyyatı və yazılı abidələr şöbəsi

*“Şifahi xalq ədəbiyyatı və yazılı abidələr» şöbəsinin əməkdaşları* 2018-ci ildə 15 kitab, 2 monoqrafiya, 29 məcmuə məqaləsi, 16 qəzet məqaləsi, 1 tezis, o cümlədən xaricdə 2 kitab, 4 məqalə çap etdirib. 5 kitab isə tərtib olunub. Şöbə üzrə cəmi 11 elmi - tədqiqat işi şifahi xalq ədəbiyyatı və yazılı abidələrin tədqiqi” problemi üzrə Azərbaycan şifahi xalq ədəbiyyatının tarixi və nəzəri məsələləri ilə məşğul olub.

“Şifahi xalq ədəbiyyatı və yazılı abidələr” şöbəsinin müdiri, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, *professor Məhərrəm Qasımlı* “Aşıq Ələsgərin həyat və yaradıcılığı” monoqrafiyasına müqəddimə yazıb, “Aşıq şeiri şəkillərinin poetik və struktur özünəməxsusluğu” mövzusunda tədqiqat işini tamamlayıb.

Prof. M.Qasımlı 6 kitab çap etdirib. O, “Azərbaycan ədəbiyyatı tarixi” oncildliyinin birinci cildinin (Bakı, “Elm”, 2018, 50 m/v.) redaksiya Şurası və redaksiya heyətinin üzvü olub.

“60 -- ömür yolu və biblioqrafiya” kitabında (Bakı, Uğur, 2018, 112 s.) ilk elmi biblioqrafiyasını tərtib edib.

*M.Qasımlı və M.Allahmanlının* “Aşıq şeirinin poetik biçimləri və çeşidləri” (Bakı, “Elm və təhsil”, 2018, 10 m/v) adlı monoqrafiyasının redaktoru Azərbaycan Aşıqlar Birliyinin katibi, f.ü.f.d. Altay Məmmədovdur.

1 noyabr 2018 - ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda *görkəmli folklorşünas-alim Mirəli Sevidovun 100 illik yubileyinə həsr edilmiş elmi sessiya* keçirilib. AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli giriş sözü söyləyib, şöbənin müdiri, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor Məhərrəm Qasımlı “Folklor və mifologiyanın unudulmaz, ustad araşdırıcısı Mirəli Seyidov” mövzusunda məruzə edib.

Yubiley münasibətilə institut Elmi Şurasının qərarı ilə alimin “Azərbaycan xalqının soykökünü düşünərkən” (Bakı, “Elm və təhsil”, 2018, 444 s.) kitabı yenidən çap olunub. Kitabda “xalqın soykökü ilə bağlı məsələlər Azərbaycan miflərinin və tarixi dəlillərin yardımı ilə aydınlaşdırılır, təfəkkür tərzi və ilkin çağlardan onun keçib gəldiyi inkişaf yolu izlənilir. Tarixi və mifik səciyyə daşıyan söz-adların açıqlanmasına xüsusi fikir verilən bu əsərdə Azərbaycan xalqının soykökündə duran qəbilələrin, qəbiləbirləşmələrinin çevrəyə münasibəti, həyata baxışı, inamlar düzümü və görüşlər silsiləsi, fikir dünyasındakı çəkişmələrin ictimai-siyasi cəhətləri araşdırmaya cəlb edilmişdir”. Sovet dövründə yazılmış əsər indi də özünün fundamental dəyərini saxlayıb. Kitab alimin 100 illiyi münasibətilə yenidən çapa hazırlanıb.

Tədqiqatda akad. İsa Həbibbəylinin “Azərbaycançılığa sədaqətlə xidmət” və xalq şairi, f.ü.f.d. Sabir Rüstəmxanlının “Sözün tarixi - xalqın tarixi” adlı ön sözü də verilib. Monoqrafiyanın birinci

fəsli "Əski köklər", ikinci fəsli isə "Köklərin bir sıra görüşləri və doğma dillərin çarpazlaşmasına baxış" problemlərinə həsr edilib. Müəllif tədqiqatını "Tarixin dan sökülənindən çağımıza kimi gərgin üzüntülərdən, işığın, haqqın qələbəsi uğrunda mübarizələrdən, halal torpaqları üstündə qanlı vuruşlardan keçib dünyanın "ən zəngin mədəniyyətindən birini yaşatmış böyük ürəkli Azərbaycan xalqına bağışlayır".

Kitabda "Aşıq şeirinin janr və poetik biçimləri, onların çoxsaylı çeşidləri həm ədəbi-nəzəri, həm də folklor poetikasının prinsipləri əsasında əlifba sırası ilə açıqlanır. Aşıq şeir sistemində rast gəlinən poetik biçimlərin (bayatı, gəraylı, qoşma, təcnis, müxəmməs, divani və s.) ilkin qaynaqları, onların tarixi mənzərəsi, janr səciyyəsi, ifa tərzi, hansı hava üzərində oxuması məqamları və s. məsələlər konkret nümunələr əsasında öz əksini tapıb. Milli - mənəvi, tarixi-mədəni düşüncənin möhtəşəm qaynağı olan ozan-aşaq mədəniyyətindən doğan şeir biçimləri və çeşidləri də yeni elmi müstəvidə araşdırılır. Bir çox poetik biçimlər və onlardan törəyən çeşidlər ilk dəfə bu kitabda diqqət önünə çəkilib və təhlil edilib. Aşıq şeir biçim və çeşidləri ilə musiqi-havacat bağlantıları arasındakı bağlılıq üzərində də ilk dəfə dayanılıb".

*Əməkdar elm xadimi, prof. Məhərrəm Qasımlı və prof. Mahmud Allahmanlı* "Aşıq şeirinin milli-tarixi özəlliyi və poetik biçimlərinin çeşid zənginliyi» adlı ön sözdə folklorşünaslığın ədəbi-nəzəri problemləri, bu sahədə çalışmış ədəbi şəxsiyyətlərdən və onların tədqiqatlarından, aşıq şeirinin biçimləri və çeşidlərindən danışıb. Beləliklə, monoqrafiyada aşıq şeirinin bənd quruluşu, bölgüsü, poeziyada yeri, yurdu, poetik janrların hər bir forma xüsusiyyətləri haqqında elmi-nəzəri fikir deyilib və istifadə edilmiş ədəbiyyat siyahısı verilib.

"Xəstə Qasımın dastanı" (Bakı, «Uğur», 2018,103 s.) kitabını nəşrə hazırlayan Əməkdar elm xadimi, Azərbaycan Aşıqlar Birliyinin sədri, prof. Məhərrəm Qasımlı, dastanı təqdim edən fəxri mədəniyyət işçisi Aşıq Hüseyn Qoşqarlı, redaktor birliyin katibi, f.ü. f.d. Altay Məmmədlidir.

Kitabda XVIII əsrin görkəmli el sənətkarı Xəstə Qasım Tikmədaşlının dastan-rəvayət səciyyəsi daşıyan üç səfəri cəmləşib. Ustad Aşıq Hüseyn Qoşqarlının 1968-ci ildə Gəncə şəhərində İrandan qonaq gəlmiş 90 yaşlı Kərbəlayı Hüseyndən yazıya alıb 50 il sonra Aşıqlar Birliyinin arxivinə təhvil verdiyi bu səfərlər Xəstə Qasımın ömür yolu və poetik" irsi ilə bağlı zəngin bir qaynaqdır. "Xəstə Qasım" dastanının üç səfərdən ibarət bir variantı» adlı ön sözün müəllifi Əməkdar elm xadimi, prof. Məhərrəm Qasımlıdır.

Dastan "Xəstə Qasıma vergi verilməsi", "Xəstə Qasımın Dağıstan səfəri" və "Xəstə Qasımın Şamaxı səfəri» bölmələri, sözlük (lüğət) və açıqlamalardan ibarətdir.

"Dədə Şəmşir ərmağanı" (Bakı, "Vətənoğlu" NPMMC, 2018, 176 s.) ustad aşığın 125 illik yubileyinə həsr olunub. Nəşrin məsləhətçisi Aşıq Şəmşir "Mədəniyyət Ocağı İctimai Birliyinin sədri Qənbər Şəmşiroğlu, hazırlayanlar birliyin sədri, Əməkdar elm xadimi, prof. Məhərrəm Qasımlı, Mədəniyyət ocağı ictimai birliyinin sədr müavini Həbib Misirov, elmi redaktoru, prof. Mahmud Allahmanlıdır.

Kitaba Əməkdar incəsənət xadimi, ustad aşıq Dədə Şəmşirin 125 illiyi münasibətilə 125 seçmə şeiri daxil edilib. Kitab Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2 aprel 2018-ci il tarixli sərəncamı ilə açılıb.

Məhərrəm müəllimin 2018-ci ildə 9 məqaləsi çap olunub.

*Əməkdar elm xadimi, prof. Qəzənfər Paşayev* 6 kitab, 5 məcmuə məqaləsi, 16 qəzet məqaləsi, o cümlədən xaricdə 2 kitab, 3 məqalə çap etdirib, 1 tərtib işini yerinə yetirib.

Prof Q.Paşayev eyni problemi-mövzu üzrə "İraq Kərkük" antologiyası»nı tamamlayıb. Alimin 2018-ci ildə Seçilmiş əsərlərin VIII ("Təhsil",480 s.), IX ("Təhsil", 480 s.) və X cildləri ("Təhsil", 2018, 432 s.) çap olunub.

Prof Q.Paşayevin bu ildə böyük mütəfəkkür İmadəddin Nəsiminin “650 illik yubileyi münasibətilə çap etdirdiyi kitab “İraq divanı”dır. (Bakı, CBC-PP; 2018, 384 s.) Professor kitabın tərtibçisi və ön söz müəllifidir, redaktor, lüğət və şərhlərin müəllifi isə Məmmədəli Əsgərovdur.

Əsər ilk dəfə latın qrafikası ilə “Azərbaycan dilində oxuculara təqdim olunub. Prof.Q.Paşayev “Nəsimi divanının İraq nüsxəsi və naməlum şeirləri” adlı ön söz yazıb. Nəsiminin İraq Divanı nüsxəsini Əbdüllətif Bəndəroğluna bağışlayan Səyid Heydər Kərkük vilayətinin Tus Xurmatın qəzasının Bəşir kəndində yaşayır. Divanın üzü Molla Turab ibn Molla Səfi İbn Molla Əmin tərəfindən köçürülüb. Divan nüsxəsi 286 səhifə olub. Əlyazmanın vərəqləri ikisütunludur, səhifələrində 14-19 beyt vardır, ölçüsü 15-21 sm-dir, burada şairin 400-dən artıq şeiri verilib.

Divan nüsxəsi səhifələnməmiş, klassik divan quruluşunda son hərflərə müvafiq düzülmüşdür. Hər səhifədəki son söz o biri səhifədə təkrarən yazılmışdır. “Payi-səhifə” (səhifə ayağı) adlanan bu üsuldan vaxtilə geniş istifadə olunub.

Şeirlər bir-birindən şairin təxəllüsü olan qoşa misralarla və iki sətirlik boş yerlə ayrılıb. Bu nüsxəyə şairin “Azərbaycan dilində yazdığı qəzəllər və iki tuyuğu daxil edilib.

Əməkdar elm xadimi, prof. Qəzənfər Paşayevin “Ədəbi estatetdə keçən ömür” (“Təhsil”, 2017, 416 s.) kitabı alimin “80” illik yubileyi münasibəti ilə çap olunub. Nəşrin ön söz müəllifi prof. Şirindil Alışanlı, rəyçisi prof. Alxan Bayramoğludur. Kitabda prof. Qəzənfər Paşayevin 2012-ci ildən günümüzə qədərki qəzet və jurnallarda çıxan elmi-publisistik məqalələri özünə yer alıb. Kitab Azərbaycan Yazıçılar Birliyinin “Qəzənfər Paşayevin “80” təbriki və prof Ş.Alışanlının «Filoloji fikrimizin görkəmli nümayəndəsi» adlı ön sözü ilə açılıb. Kitabda alimin bədii yaradıcılığından örnəklər və yığcam biblioqrafiyası da verilib.

Prof. Q.Paşayev bu ildə “Həyat düşüncələri” adlı (Bakı, “Təhsil”, 2017, 192 s.) kitabını da çap etdirib. Nəşrin “Kərkükün mənəvi elçisi adlı” ön söz müəllifi xalq yazıçısı Anardır. Redaktoru Şirindil Alişanlı, rəyçisi Sərvaz Hüseynoğludur.

Kitabda “şair Vaqif Bəhmənlinin görkəmli ədəbiyyatşünas, folklorşünas, dilçi, mətnşünas alim Qəzənfər Paşayevlə geniş müsahibəsi professorun elm, sənət, ədəbiyyat və həyat haqqında bədii-fəlsəfi düşüncələri” özünə yer alıb. Kitabın sonunda alimin düşüncələrindən seçmələr və tərcüməyi-halı verilib.

Q.Paşayevin Ankarada çap edilmiş “Kərkük Sevdalısı Qazanfer Paşayev Hayatı ve eserleri” (Ankara, 2019) adlı əsəri də 2018-ci ilin uğurlu nəşridir.

*F.ü.f.d. Aynur Xəlilova* 2018-ci ildə 2 kitab, 1 monoqrafiya, 5 məcmuə məqaləsi, 1 tezis çap etdirib, 2 tərtib işini yerinə yetirib. O, eyni problem-mövzu üzrə “Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər” məqaləsini yerinə yetirib. A.Xəlilova “Teymur Elçinin “Könlüm Qarabağdadır” (Bakı, “Təhsil” Teas-Press, 2018) kitabını tərtib edib və ona ön söz yazıb. Onun “Aşıq rəvayətləri: təsnifi və poetik sistemi” monoqrafiyası da (Bakı, “Elm”, 2018) 2018-ci ilin nəşridir.

Bu ildə *F.ü.f.d, aparıcı elmi işçi Tinatin Məmmədova* 2, *f.ü.f.d,a.e.i. Nigar İsayeva* 2, *f.ü.f.d., a.e.i Svetlana Məmmədova* 3, *f.ü.f.d. İlhamə Ağazadə* 1 monoqrafiya, 2 məcmuə məqaləsi, *f.ü.f.d. Səadət Bayramova* 1 məcmuə məqaləsi çap etdirib.

2018-ci ildə şöbə üzrə cəmi 70 elmi-tədqiqat və tərtibat işi həyata keçirilib. Onu da əlavə edək ki, bu il şöbə əməkdaşı *Aygün Qasımovanın* dissertasiya işi müzakirə edilib, o, müdafiəyə buraxılıb. Şöbə əməkdaşları il boyu konfrans və yubiley tədbirlərində çıxış edib. İl ərzində 15 kitab, 28 məqalə nəşr olunub.

Bu ildə prof Məhərrəm Qasımlı “Şöhrət” ordeni, prof. Qəzənfər Paşayev Əməkdar elm xadimi adlarına layiq görülüb. Təbrik edirik.

Hazırladı:

**Əlizadə Əsgərli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə
direktor müavini; filologiya elmləri doktoru professor

**Məhərrəm Qasımlı**
«Şifahi xalq ədəbiyyatı və yazılı abidələr» şöbəsinin  müdiri,
Əməkdar elm xadimi, filologiya  elmləri doktoru, professor